

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 4 (20.905)

*10 yanvar 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## *Rəsmi xronika*



Yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Prezident İlham Əliyev 2013-cü ildə respublikamızda Ümumi Daxili Məhsulun, təxminən, 6 faiz, qeyri-neft sektorunun 9,8 faiz, əhalinin pul gəlirlərinin 8 faiz artdığını, inflyasiyanın 2,4 faiz təşkil etdiyini bildirdi. Ötən il Azərbaycan iqtisadiyyatına rekord miqdarda – 28 milyard dollar investisiya qoyulduğunu deyən dövlətimizin başçısı ölkəmizin strateji valyuta ehtiyatının 50 milyard dollara çatdığını vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, 2013-cü ildə ölkəmizdə 80 mini daimi olmaqla 110 min yeni iş yeri yaradılmışdır və işsizlik bir qədər də aşağı salınaraq 5 faiz təşkil etmişdir.

Dövlətimizin başçısı inşası uğurla davam etdirilən Bakı-Tbilisi-Qars dəmir yolunun 2015-ci ildə istismara veriləcəyinə ümidvar olduğunu qeyd etdi. 2013-cü ildə TAP və “Şahdəniz-2” layihələri çərçivəsində əldə olunan uğurlara toxunan Prezident İlham Əliyev qlobal səviyyəli bu layihələrin reallaşmasında Azərbaycanın rolunu xüsusi vurğuladı.

Dövlətimizin başçısı 2014-cü ilin “Sənaye ili” olacağını bildirdi.

## Tariximizin qəhrəmanlıq səhifəsi

Naxçıvan şəhərindəki 2 nömrəli tam orta məktəbdə 20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş “Tariximizin qəhrəmanlıq səhifəsi” mövzusunda tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə məktəbin direktoru Sevil Salayeva açaraq yanvarın 19-dan 20-nə keçən gecə xalqımızın başına gətirilmiş müsibət, baş verən qanlı qırğın barədə danışmış, ümummilli liderimiz Heydər Əliyevin 20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində apardığı mübarizədən bəhs etmişdir. Qeyd olunmuşdur ki, həmin gün xalqımız böyük faciə ilə üzləşsə də, özünün Vətənə, torpağa sədaqətini, qəhrəmanlığını, azadlıq, müstəqillik uğrunda mübarizliyini, sarsılmazlığını bütün dünyaya sübut etmişdir. Məktəb direktoru 20 Yanvarın xalqımızın tarixinin həm faciəli, həm də şərəfli səhifəsi hesab edildiyini, həmin tarixin hər bir azərbaycanlı üçün qürur mənbəyi olduğunu, bu cür tədbirlərin gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət daşıdığını vurğulamışdır.

Tədbirdə məktəbin müəllimlərindən Akif Məmmədov, Məlahət Seyidova və başqaları çıxış edərək bildirmişlər ki, 20 Yanvar hadisələri Azərbaycanın müstəqillik mübarizəsi tarixinə faciə, eyni zamanda xalqımızın qəhrəmanlıq salnaməsi kimi yazılmış, həmin ağrılı günlər həm də sınaq dövrü kimi yadda qalmışdır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirmişdir. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları o qanlı gecədə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar.

Sonda məktəb şagirdlərinin ifasında “Şəhidlik zirvəsi” adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir.

## Poçt orqanlarının fəaliyyətinin genişləndirilməsi və bu sahədə idarəetmənin təkmilləşdirilməsi diqqət mərkəzindədir

İnformasiya texnologiyalarının tətbiqi poçt sahəsində ənənəvi xidmətlərlə yanaşı, qeyri-ənənəvi xidmət növlərinin də göstərilməsini zərurətə çevirib. Belə ki, Naxçıvanda həyata keçirilən “Maliyyə xidmətlərinin inkişafı” layihəsi müasir informasiya texnologiyalarının tətbiqinə, poçt sisteminin yenidən qurulmasına, qeyri-ənənəvi və yenitipli elektron xidmətlərin göstərilməsinə şərait yaradıb. Layihəyə uyğun olaraq, muxtar respublikada 105 poçt şöbə və bölməsi avtomatlaşdırılıb, yeni sistem üçün server qurulub, lazımi proqram təminatı ilə təchiz edilib. Yeni xidmətlərin göstərilməsi üçün poçt əməliyyatçılarının, energetika, qaz və su təsərrüfatı müəssisələri işçilərinin iştirakı ilə kurslar təşkil olunub. 2013-cü il iyul ayının 1-dən etibarən Naxçıvan şəhərində, oktyabr ayının 1-dən isə rayon mərkəzlərində və kəndlərdə kommunal xidmət haqlarının poçt məntəqələrində yığılmasına başlanılıb. Hazırda poçt məntəqələri vasitəsilə kənd yerlərində əhalinin bank-maliyyə xidmətlərinə sərbəst çıxışının təmin edilməsi və müştərilərə genişhəcmli xidmətlər göstərilməsi üçün müvafiq tədbirlər həyata keçirilir.

Muxtar respublikada poçt işinin müasir tələblər səviyyəsində qurulması sahəsində görülən tədbirlər bu sistemin maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, poçt orqanlarının fəaliyyətinin genişləndirilməsi, bu sahədə idarəetmənin təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında” 2013-cü il 30 iyul tarixli Sərəncamı bu sahədə görüləcək işlərin miqyasını daha da genişləndirib. Sərəncama əsasən, cəmiyyətin nizamnaməsi və ştat strukturu təsdiq edilib, onun rayon filiallarının işinin təşkili üçün müvafiq hüquqi və praktik işlər yerinə yetirilib. Artıq “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tam olaraq fəaliyyətə başlayıb. Hazırda cəmiyyət 7 filialı və 149 poçt məntəqəsi vasitəsilə muxtar respublika əhalisinə nümunəvi xidmət göstərir.

Poçt xidmətinin həcminin artırılması ilə əlaqədar olaraq, daxili poçtdaşıma işlərinin yaxşılaşdırılması, məktub və bağlamaların vaxtında çatdırılması da diqqət mərkəzində saxlanılıb. Yüklərin daşınması üçün “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti və onun rayon filialları üçün 8 ədəd “NAZ-Lifan” markalı avtomobil alınıb.

## Pensiya müavinətlərinin plastik kartlarla ödənilməsi tam təmin olunub

Sığorta-pensiya sistemində əsaslı dəyişikliklərin həyata keçirilməsi tədbirləri çərçivəsində pensiyaların ödənilməsində yeni forma və metodların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Bu gün pensiyaçılara daha yüksək səviyyədə xidmət göstərilməsi üçün pensiyaların plastik kartlarla ödənilməsi vacib məsələyə çevrilmişdir. Ölkə Prezidentinin “Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında” 2003-cü il 4 avqust tarixli Fərmanına əsasən, ölkədə pensiyaların plastik kartlarla bankomatlar vasitəsilə ödənilməsi sisteminin tətbiqinə başlanmışdır. Pensiyaların ödənişində plastik kart sisteminin tətbiqi sığorta-pensiya sistemində reallaşdırılan ən uğurlu tədbirlərdən biridir. Bunun nəticəsidir ki, pensiyaların əhaliyə çatdırılmasında uzun illərdən bəri mövcud olan problemlər aradan qaldırılmışdır.

2005-ci ildən Naxçıvan Muxtar Respublikası ərazisində də pensiyaçıların pensiyalarının plastik kartlarla bankomatlar vasitəsilə ödənilməsi üçün hazırlanan plastik bankomat kartları Dövlət Sosial Müdafiə Fondunun büdcəsi hesabına hazırlandığından pensiyaçılara pulsuz paylanır. Plastik kart və onun unikal PİN kodu Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiyaçıya şəxsən təqdim edilir. Pensiyaçılar həmin kartlar vasitəsilə pensiyalarını vəsait hesaba köçürüldükdən dərhal sonra Azərbaycan Respublikasının istənilən bölgəsində və günün istənilən saatında bankomatlardan almaq imkanına malikdirlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan aldığımız məlumata görə, hazırda muxtar respublikada pensiyaçıların 52 min 317 nəfərinə, yaxud 100 faizinə pensiyaları plastik kartlar vasitəsilə ödənilir. Ötən 2013-cü ildə plastik kartla təmin olunan pensiyaçıların sayı 5 min 597 nəfər olmuşdur. Qeyd edək ki, plastik kartla təmin olunma pensiyaçıların könüllü müraciətləri əsasında reallaşdırılır.

## Sosial-iqtisadi inkişaf bütün sahələrdə özünü göstərir

2013-cü ildə muxtar respublikada makroiqtisadi göstəricilərin artması sosial-iqtisadi inkişafın möhkəm amillər üzərində dayandığının göstəricisidir. Bəhs olunan dövrdə diyarımızda Ümumi Daxili Məhsul istehsalı 2012-ci ildəkindən 10 faiz çoxdur.

Digər bir önəmli fakt isə 2013-cü ildə muxtar respublika büdcəsinin gəlirlərinin artaraq 59 milyon 464 min manata çatmasıdır.

Bəhs edilən dövrdə əməliyyatların nağdsız hesablaşmalar vasitəsilə aparılması diqqət mərkəzində saxlanılıb ki, bu da dövriyyədə olan nağd pul kütləsinin həcminin azaldılmasında və vergidənyayınma hallarının qarşısının alınmasında başlıca amillərdən biridir. Bu məqsədlə bəhs olunan müddətdə ticarət və satış obyektlərində 131 POS-terminal quraşdırılmaqla fəaliyyət göstərən POS-terminalların sayı 227-yə çatdırılıb.

artaraq 2 milyard 337 milyon manatı ötüb. Təbii ki, bu, əməkhaqlarının və əhali gəlirlərinin artmasına da təsir göstərib. Konkret olaraq, 2013-cü ildə muxtar respublikada əhalinin gəlirləri əvvəlki ilə nisbətən 7 faiz artaraq 1 milyard 737 milyon manatdan çox olub. Bu rəqəm əhalinin alıcılıq qabiliyyətinin daha da yüksəlməsini, istehlak bazarında əmtəə dövriyyəsinin və pullu xidmətlərin artımını təmin edib. Adıçəkilən dövrdə muxtar respublikanın istehlak bazarında əhaliyə 1 milyard 289 milyon manatdan çox istehlak mallarının satılması, pullu xidmətlər göstərilməsi bunun bariz ifadəsidir və əvvəlki ilin göstəricilərindən 13

2013-cü il ərzində bankların da fəaliyyəti diqqətçəkicidir. Belə ki, muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən 58-i hüquqi, 7 min 702-si isə fiziki şəxs olmaqla, 7 min 760 bank hesabı açılıb. Açılmış bank hesablarından 7 min 706-sı və ya 99 faizi aktiv hesablardır.

## Elektrik enerjisindən səmərəli istifadə edilir

Muxtar respublikada abonentlərin etibarlı elektrik enerjisi ilə təmin olunması istiqamətində həyata keçirilən tədbirlər ötən il də uğurla davam etdirilmişdir. 110/35/10 kilovoltluq “Ordubad” yarımstansiyası yeni avadanlıqlarla təchiz edilməklə daha münasib yerə köçürülmüş, ümumi gücü 41 mva olan güc transformatorları, 110 kilovoltluq kommutasiya aparatları – açarlar, ayırıcılar, gərginlik və cərəyan ölçü transformatorları, 35 və 10 kilovoltluq müasir hücrələr və digər zəruri elektrik avadanlıqları quraşdırılaraq istismara verilmişdir. Eyni zamanda 39 ədəd yeni transformator yarımstansiyası qoyulmuş, 87,5 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmişdir. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexləri lazımi materiallarla təmin edilmiş, 112 ədəd 35/6 və 10/04 kilovoltluq transformator təmir edilərək şəbəkələrə qoşulmuşdur.

Əsas avadanlıq və materialların alınması davam etdirilmiş, ötən il Türkiyə Respublikasından yarımstansiyalar üçün eleqaz açarları, ayırıcılar, turbin yağları, işıqlandırma dirəkləri, kabellər, Ukrayna Respublikasından güc transformatorları, müxtəlif izolyatorlar alınmış, yeni avadanlıqların alınması üçün müqavilələr bağlanmışdır. Baş verə biləcək qəza hallarının vaxtında aradan qaldırılmasında operativliyi təmin etmək məqsədilə mütəxəssislərdən ibarət təmir-bərpa briqadalarının fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılmışdır.

2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar kompleks tədbirlər həyata keçirilmişdir. Enerji təsərrüfatında istismarda olan mövcud avadanlıqlara və xətt təsərrüfatlarına müntəzəm olaraq texniki baxış keçirilmiş, aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. İstehlakçılara fasiləsiz elektrik enerjisinin verilməsi diqqətdə saxlanılmışdır. Qəzalara səbəb olan və istismar müddəti başa çatmış elektrik dirəkləri yeniləri ilə əvəz edilmiş, naqillər bərkidilmişdir. Qış mövsümündə baş verə biləcək qəzaların vaxtında aradan qaldırılması üçün maşın-mexanizmlər saz vəziyyətə gətirilmiş, kifayət qədər mal-material ehtiyatı yaradılmışdır.

İstehsal olunan elektrik enerjisindən səmərəli istifadə edilməsi və sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsində mühüm rol oynayan sayğacların quraşdırılması işi də diqqət mərkəzində saxlanılır. Muxtar respublikada vətəndaşların ev və mənzillərinə rəqəmsal sayğaclar qoyulmuş, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilmişdir. Nəzarət-məlumat işinin səmərəli təşkili və əhali arasında aparılan maarifləndirici söhbətlər də öz bəhrəsini vermiş, ötən il texniki itki nəzərə alınmaqla 396 milyon 218 min kilovat-saat elektrik enerjisi sərf olunmuş, sərf olunan elektrik enerjisinin dəyəri 100,18 faiz ödənilmişdir.

**Xəbərlər şöbəsi**

# Gilançay üstündə abad yurd yeri

*Bu dəfə yolumuz Ordubad rayonunda yerləşən, füsunkar təbiətə malik ərazilərdən biri olan, günü-gündən gözəlləşən, öz qədimliyini qoruyub saxlayan Sabirkənddədir. Kəndə çatana kimi yol boyu muxtar respublika kəndlərinin ağır sınaqlardan keçdiyi günləri gözlərimin önündə canlandırırdım. İnsanları ən ağır sınaqlara çəkilən Naxçıvan torpağı dəryada sükansız gəmi təsiri bağışlayırdı. Yolları bağlanan, işığı kəsilən, mağazalarının qabağında çörək növbələri yaranan, tez-tez güllə səsləri eşidilən diyarın sakinlərinin bu gündən sabaha ümidləri qalmamışdı. Ancaq bu vəziyyət naxçıvanlıların əzmini sındıra bilmədi. Doğma torpağa bağlılıq, ata-baba əmanəti olan yurd yerlərinə məhəbbət hissləri qalib gəldi.*



Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvana gəlişi, buradakı fəaliyyəti, naxçıvanlılara tövsiyə və məsləhətləri insanların sönmüş ümidlərini özlərinə qaytardı. Qədim diyarın bu gününün təməli beləcə qoyuldu. O illərlə bu gün arasında elə də böyük zaman kəsiyi olmadığını düşünürəm. Ancaq görülən işlərin, qazanılan uğurların, sosial-iqtisadi inkişafın möhtəşəm olduğu bu günün gerçəkliyidir. Yol boyu kəndlərdə gördüyüm yeni quruculuq ərməğanları məhz doğma yurda, onun insanlarına qayğının ifadəsi kimi diqqəti çəkir. Bütün bunlar asan başa gəlməyib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sözlərini xatırlayıram: ***"Quruculuq işləri təkcə şəhər və rayon mərkəzlərini yox, ən ucqar kəndləri də əhatə edir. Kəndlərdə məktəblər, tibb məntəqələri, kənd mərkəzləri, rabitə-poçt müəssisələri, mədəniyyət obyektləri tikilir, yeni avtomobil yolları salınır. Bu inkişaf ona görə davamlıdır, ona görə hər il artan xətt üzrə gedir ki, bütün dövrlər üçün yaradıcı gücə malik olan Heydər Əliyev siyasi irsi, quruculuq xətti ölkəmizdə davam və inkişaf etdirilir".***

Budur, Sabirkəndə çatmışıq. Qışın oğlan çağıdır. Buna baxmayaraq, rastlaşdığımız insanların üzündə xoş təbəssüm var. Bir neçə ildir ki, bu yaşayış məntəqəsi muxtar respublikada nail olunan sosial-iqtisadi inkişafın önündə gedən yurd yerlərindən biridir. Bu amil sabirkəndliləri öz doğma yurd yerlərinə sıx tellərlə bağlamışdır.

Bir az irəlilədikcə müasir binalar gözə dəyir. 2010-cu ildə Sabirkənddə kənd mərkəzi istifadəyə verilmişdir. Mərkəzdə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, baytarlıq məntəqəsi, rabitə evi, polis sahə məntəqəsi, 3160 ədəd kitab fonduna malik kitabxana, mədəniyyət evi, 40 yerlik zal yerləşir. Kənd tamamilə qazlaşdırılmış, bütün evlərə telefon çəkilmiş, burada həkim ambulatoriyası tikilmişdir. Kənd sakinlərinə ən böyük quruculuq ərmağanlarından biri də bu ilin oktyabr ayında istifadəyə verilən tam orta məktəb binasıdır. Məktəb kollektivi yaxşı başa düşür ki, yeni məktəb binasının istifadəyə verilməsi elmə, təhsilə, gələcəyimiz olan gənc nəslə göstərilən dövlət qayğısının daha bir ifadəsidir. Məktəbdə müasir informasiya texnologiyalarının tətbiqi, yeni tədris avadanlıqlarının qurulması təhsilin səviyyəsini xeyli yüksəltmişdir. Göstərilən hərtərəfli diqqət və qayğıya cavab olaraq məktəbin pedaqoji kollektivi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır. Onu da qeyd edək ki, ötən tədris ilində məktəbi bitirən məzunlardan 7-si ali məktəblərə, 3-ü orta ixtisas məktəbinə, 3-ü isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur. Növbəti qəbul imtahanında uğurları daha da artırmaq məktəb kollektivinin hədəfidir.

Məktəblə tanışlıq zamanı sinif otaqlarını gəzdik. Birinci sinif şagirdləri diqqətimizi çəkdi. Onlara baxdıqca Azərbaycanın parlaq gələcəyini görmək heç də çətin deyildi. Öyrəndim ki, 2013-2014-cü tədris ilində Sabirkənd tam orta məktəbində birinci sinfə 30 şagird qəbul olunmuşdur. Məktəb binasının açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Gənclər ölkəmizin gələcəyidir. Bu mənada təhsilə göstərilən qayğı, çəkilən zəhmət ölkənin gələcəyinə xidmət edir. Dövlətimiz tərəfindən təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Yeni məktəb binaları tikilir, tədrisin keyfiyyəti yüksəldilir, müəllimlərin əməkhaqları artırılır, fərqlənənlərin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Bütün bunlar isə müəllimlər qarşısında mühüm vəzifələr qoyur. Ölkəmizin gələcəyi olan gənclərin hazırlanması, onların Vətənə sədaqət ruhunda tərbiyə olunması hər bir müəllimin fəaliyyətinin əsasını təşkil etməlidir".*** Ali Məclis Sədrinin bu fikirləri məktəb kollektivinin fəaliyyət devizinə çevrilmişdir.

Məktəbdən ayrılandan sonra kənd sakini Tağı Fərəcovla qarşılaşırıq. Bir neçə kitabın müəllifi olan Tağı müəllimlə kəndi gəzə-gəzə söhbət edirik:

– Bax, görürsünüz bu yolları? Əvvəllər bu yollar yararsız halda idi. Uçuq-sökük və yöndəmsiz yaşayış evləri kəndimizdə cansıxıcı bir mənzərə yaratmışdı. Görkəmindən bəlli olurdu ki, bu kənddə yaşayanlar ağır güzəran keçirirlər. Kənddə kitabxana, klub, həkim məntəqəsi, ticarət binası, bir sözlə, sosial obyektlər yox dərəcəsində idi. Kənd sakinləri maldarlıqla, əkinçilik və bağçılıqla məşğul olsalar da, ağır güzəran keçirirdilər. İşsizlik üzündən daim ehtiyac içərisində yaşayırdılar. Vallah, o zamanlar qəzetlərə yazı yazanda kəndimizin vəziyyətini ürəkağrısı ilə qələmə alırdım. İndi vəziyyət tamam başqadır. Kəndimiz günü-gündən gözəlləşir, abadlaşır, inkişaf edir. Yüksək diqqət və qayğı, yaradılan əlverişli şərait kənd adamlarının doğma torpağa, yurd yerinə bağlılığını daha da artırır, onları qurub-yaratmağa, özlərinə firavan dolanışıq qurmağa həvəsləndirir, günün reallıqları ilə ayaqlaşmağa, bazar iqtisadiyyatının qanunlarına uyğunlaşmağa sövq edir. Çünki ələbaxımlılıq, başqasından asılı olmaq kəndlinin təbiətinə ziddir. Halal qazanc mənbəyi – torpaq payı olan hər bir kəndli bu gün daha qürurludur. Bu qürur isə əzmkarlıqdan, zəhmətsevərlikdən doğur. Övladlarımın hamısı ali təhsillidir. Onlar ali təhsillərini başa vurduqdan sonra doğma kəndlərinə qayıtdılar; burada işləyir, təsərrüfatla məşğul olurlar.

Kəndin sağ və sol səmtində sıralanan zirvəli dağlar, qayalar, lap yaxınlığından səs-küylə axan Gilançay kəndə əsrarəngiz bir gözəllik verir. İnsanı ruhlandırır, yaşayıb-yaratmaq həvəsi yaradır. Məhz bu cür təbiətinə görə kəndimizdə uzunömürlülər çox olmuş və indi də vardır. Fatimə Mehbalıyeva, Sara Fərəcova, Telli Mehdiyeva, Sonabəyim İbrahimova, Balabəyim Mehbalıyeva, Nabat Rüstəmova, Xavər və Yavər Əhmədovalar yüz, yüz on yaş ömür sürmüşlər. Bu gün ömürlərinin ahıl dövrünü yaşayan Əşrəf Əşrəfov, Salman Əliyev, Bayraməli Rüstəmov, Əli Əliyev, İmran İbrahimov kəndin ən qocaman sakinləri sayılırlar. Onlar hətta şəxsi təsərrüfatlarında çalışmaqdan da qalmırlar.

Kəndin təbii şəraiti olduqca əlverişlidir. Gözəlliklər qoynunda qərar tutan bu kənddə əsas məşğuliyyət sahəsi meyvə-tərəvəzçilikdir. Ata-babadan belə eşitmişik və belə görmüşük ki, kəndli torpaqda çalışar, bağ-bağçada, əkin-biçində olar, ruzi-bərəkətini də torpaqdan qazanar. Belə zəhmətkeş insanlarla söhbətləşirəm. Torpağa tükənməz ruzi-bərəkət mənbəyi kimi baxan, ona əsl övlad münasibəti bəsləyən zəhmətsevər Polad Əliyev söhbət əsnasında deyir:

– Ağlım kəsəndən dədə-babalarımızı əkinçiliklə məşğul olan görmüşəm. Doğrudur, onlar çox zəhmət çəkir, qazancları isə cüzi olurdu. Bununla belə, öz ailələrini birtəhər dolandırırdılar. İndi şükür ki, hər şey kəndlinin öz ixtiyarındadır. Sulu, bol-bərəkətli torpaqlar biz kəndlilərə təmənnasız verilib; qazancımıza şərik çıxmaq istəyən də yoxdur. Əksinə, dövlətimiz torpaq mülkiyyətçilərinə hərtərəfli qayğı göstərir, lazımi qədər maliyyə yardımı, toxum, gübrə, texnika verir. İstəyir ki, heç bir çətinliyimiz olmasın, torpağımızı rahat əkib-becərək, yaxşı dolanaq, özümüzə layiqli yaşayış yaradaq. Bu cür yüksək qayğının müqabilində gərək biz kəndlilər də yaxşı çalışaq, əkinimizin məhsuldarlığını artıraq ki, bundan dövlətimizə, xalqımıza, elimizə, obamıza da bir xeyir dəysin. Dövlətin də istəyi bu deyilmi? Mən neçə illərdir ki, tərəvəzçiliklə məşğul oluram. Ailəmin tələbatını ödəməklə yanaşı, məhsulumun bir hissəsini də bazara çıxarıb qazanc əldə edirəm.



Kənddə meyvəçiliklə ciddi məşğul olanlardan Abdulla Əliyev, Sərməst Əliyev, Rəşad Hüseynov və başqaları becərdikləri bağlardan hər il bazara tonlarla məhsul çıxarıb yaxşı qazanc əldə edirlər. Bu mənada sahibkarlar hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkasının imkanlarından yetərincə bəhrələnirlər. Bunu dövlətimizin məhsul istehsalçılarına göstərdiyi qayğının tərkib hissəsi kimi çox yüksək qiymətləndirirlər. Əvvəllər bəzi imkanlar olmadığından, məhsulun bazara daşınması çətinliklər yaratdığından bu adamların əməyinin bəhrəsi olan tonlarla meyvə-tərəvəz zay olub gedir, gözdağına çevrilirdi. İndi isə vəziyyət tamam başqa cürdür. Sahibkarlar nə məhsullarının bazara daşınmasında nəqliyyat xərci çəkir, nə rüsum ödəyir, nə də digər çətinliklərlə üzləşirlər. Odur ki, meyvəçiliyin və tərəvəzçiliyin inkişafına maraq getdikcə artmaqdadır.

Sabirkənddə heyvandarlıq da inkişaf etdirilir. İndi kənddəki təsərrüfatlarda, ümumilikdə, 677 baş iribuynuzlu, 879 baş isə xırdabuynuzlu heyvan saxlanılır. Heyvandarlardan Abbasqulu Hüseynov, Qorxmaz Əliyev, Yalçın Fərəcov və başqaları bu işlə daha ciddi məşğul olur, dövlətimizin göstərdiyi dəstəkdən lazımınca yararlanaraq öz təsərrüfatlarını ildən-ilə genişləndirir, onun cins tərkibini daha da yaxşılaşdırırlar. Belə olan təqdirdə heyvandarların təsərrüfatlarından əldə etdiyi qazanc da artıq olur. Digər tərəfdən, daxili bazarda ət və süd məhsullarının bolluğu yaranır ki, bu da istehlakçılar tərəfindən rəğbətlə qarşılanır.

Onu da xüsusilə qeyd edim ki, Sabirkənddə gənclər ağbirçək və ağsaqqallara böyük hörmət, ehtiram göstərirlər. Onlar milli adət-ənənələrimizə, milli geyimlərimizə hörmətlə yanaşırlar. Xüsusən də xeyir-şər məclislərində birlik nümayiş etdirirlər. Bu səmimi və işgüzar adamlarla ünsiyyətdə olduqca onların yaşayıb-yaratmaq əzmi qarşısında heyrətlənməmək olmur.

Kənddə kimlə həmsöhbət oldumsa, hamı Sabirkəndin abad yaşayış məntəqəsinə çevrildiyini, insanların rifahının yüksəldiyini, problemlərinin vaxtlı-vaxtında həll olunduğunu bildirdi.

*Kəndlərimizin abadlaşdırılması, belə ünvanlarda yaşayan insanların həyat səviyyəsinin yüksəldilməsi üçün həyata keçirilən tədbirləri Sabirkəndin timsalında bütün çalarları ilə görmək mümkündür. Bu tədbirlərin getdikcə daha geniş vüsət alması isə o deməkdir ki, belə yaşayış məntəqələri hərtərəfli dövlət qayğısından kənarda deyil. Bunun müqabilində isə hər bir kənd adamı sosial-iqtisadi inkişafımıza öz töhfələrini verməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi:* ***"İnsanların öz vəzifə və hüquqlarını həyata keçirməsi üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılıb. Dövlətimizin vəzifəsi olaraq həyata keçirdiyi tədbirlər müqabilində biz də öz vəzifələrimizi yerinə yetirməliyik. Torpaqlardan səmərəli istifadə olunmalı, insanlar fəaliyyət göstərdiyi yerdə yaxşı çalışmalı, hər kəsin dövlətimizin, iqtisadiyyatımızın möhkəmlənməsində əməyi olmalıdır".***

*Sabirkəndlilər də bu amalla yaşayır, qurub-yaradırlar.*

**Sara ƏZİMOVA**

# "Gəmiqaya Nəqliyyat" MMC-də yeni xidmət sahələri yaradılıb

***"Gəmiqaya Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyəti yük və minik avtomobillərinə servis xidmətlərinin göstərilməsi, lazımi ehtiyat hissələrinin alınıb muxtar respublikaya gətirilməsi məqsədilə yaradılıb. Naxçıvan şəhərində yerləşən müəssisədə inzibati bina, ehtiyat hissələrinin saxlanılması anbarı, müasir avadanlıqlarla təmin olunmuş laboratoriya, müxtəlif təmir sexləri tikilib, Almaniya, Yaponiya, Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. 2011-ci ilin fevral ayından fəaliyyətə başlayan müəssisədə keyfiyyətli servis xidmətlərinin göstərilməsi üçün hərtərəfli şərait yaradılıb.***



Yük və minik avtomobillərinin təmiri sexində avtomobillərin diaqnostik müayinə mərkəzi istifadəyə verilib. Kompüterdə əks olunan göstəricilərin surətləri çıxarılıb müştəriyə təqdim edilir və həmin nasazlıqlara uyğun servis xidmətləri göstərilir.

Boya sexində yük və minik avtomobillərinin qismən və ya tam şəkildə boyanması üçün havalandırma və istilik sistemi ilə təmin olunan, kompüterlə idarə edilən xüsusi qurğu quraşdırılıb. İlkin olaraq avtomobillərdən nümunələr götürülüb laboratoriyada analizdən keçirilir. Boyanın növü, tərkibi və rəngi müəyyənləşdirildikdən sonra laboratoriyanın göstəricilərinə uyğun boya hazırlanır. Boyanın vurulması və qurudulması xüsusi kabinədə aparılır ki, bu da görülən işin keyfiyyətində mühüm amildir.

Müəssisədə fəaliyyət göstərən səyyar servis xidmətinin yüksək səviyyədə aparılması üçün ixtisaslı mütəxəssislər cəlb olunub, xüsusi avtomobillər ayrılıb. Bu da iş prosesində avtomobillərdə yaranan nasazlıqların yerindəcə aradan qaldırılmasına, lazım olduqda evakuatorla müəssisəyə gətirilməsinə imkan verir.

Müəssisədə bütün markalardan olan yük və minik avtomobillərinin mühərriklərinin yenilənməsi üçün xidmət sahəsi tikilib istifadəyə verilib. Burada Türkiyə Respublikasının istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən 20-yə yaxın müasir texnoloji avadanlıq quraşdırılıb. Qeyd edək ki, "Gəmiqaya Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyəti ölkəmizdə mühərriklərin yenilənməsini kompleks formada həyata keçirən yeganə müəssisədir.

**Kərəm HƏSƏNOV**

# XIV əsr tarixçisi Həmdullah Qəzvininin bəhs etdiyi dörd Naxçıvan qalası haqqında

*Azərbaycan Atabəylər dövlətinin mövcudluğu illərində Naxçıvan dövlətin əsas idarəçilik mərkəzlərindən biri olmuşdur. Ərazinin coğrafi-strateji əhəmiyyətini nəzərə alan Eldənizlər şəhərlərin inkişaf etdirilməsinə, qalaların möhkəmləndirilməsinə ciddi diqqət yetirirdilər. Bu dövr haqqında məlumat verən orta əsr mənbələrində paytaxt Naxçıvanla yanaşı, Azad, Kiran, Ordubad, Əylis, Culfa şəhərlərinin və Əlincə, Sürməri, Tağmar, Faqnan kimi qalaların adı çəkilir, şəhərlərin idarəçiliyi, iqtisadi inkişafı, ticarət yolları haqqında məlumatlar verilir.*

Qafqazın və Azərbaycanın orta əsr tarixi-coğrafiyasına aid mənbələrdən biri də Həmdullah Mustovfi Qəzvininin "Nüzhət əl-Qülub" əsəridir. Təqribən, 1280-1350-ci illər arasında yaşamış Həmdullah Qəzvininin adı tarixə tarixçi, səyyah və şair kimi düşmüşdür.

Onun "Tarixe-qozide" ("Seçilmiş tarix") (1330) və "Nüzhət əl-Qülub" ("Qəlblərin əyləncəsi") (1340) əsərləri orta əsrlər Azərbaycan, İran, İraq, Mesapotamiya, Kiçik Asiya tarixi və tarixi-coğrafiyasına aid məlumatlarla zəngindir. "Nüzhət əl-Qülub" əsərinin VII bölümündə Azərbaycan ərazisindəki tümənlərdən (inzibati-ərazi bölgüsü, region və ya bölgə) bəhs edən H.Qəzvini Naxçıvan tüməni haqqında da məlumat vermişdir. Bu tümənin 5 şəhərinin – Naxçıvan, Ərıcan, Ordubad, Azad və Makuyənin adını çəkən müəllif monqollardan əvvəlki dövrdə Naxçıvan ərazisində mövcud olmuş 4 qaladan da bəhs edir. Həmdullah Qəzvini qeyd edir ki, Naxçıvan şəhəri ətrafından müəyyən dağıntılara məruz qalmış möhtəşəm Ələncik (Əlincə), Sürməri, Tağmar və Faqnan qalaları vardır.

Nəzərə alsaq ki, Azərbaycan tarixində ən qüdrətli dövlətlərdən biri olan Atabəylər (Eldənizlər) dövlətinin mövcudluğu illərində (1136-1225) Naxçıvan dövlətin əsas idarəçilik mərkəzlərindən biri olmuşdur, onda bu qalaların o zaman hansı əhəmiyyət daşıdığı aydın olar.

***Əlincə – "ilk məskən", yoxsa "boş sahə"?***

Xalq etimologiyasında adının izahı "əlini çək", bəzi tədqiqatçılara görə, "Alancik" ("boş sahə") mənasını verən Əlincə qalasının tikilmə tarixini bəzən 2 min il bundan əvvələ aid edirlər. "Kitabi-Dədə Qorqud"da möhkəm istehkam kimi təsvir olunan Əlincə qalası haqqında orta əsr tarixçilərindən Nəsəvi, Şərafəddin Əli Yəzdi, türk səyyahı Övliya Çələbi də məlumat vermişdir.

"Əlincə" sözünün hansı mənaya gəldiyini düşünərkən bir məqam diqqətdən yayınıb. Bəzi orta əsr mənbələri Əlincə qalasından "Yerönçək" deyə bəhs edirlər. Məsələn, 1225-ci il hadisələrindən danışan Mirxond Əlincə qalasını "Əlincək" kimi təqdim edir.

Əlincə qalasının Eldənizlər dövründə dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu Sədrəddin Əli əl-Hüseyni "Əxbar əd-dövlət əs-Səlcuqiyyə"də də yazır. Onun yazdıqlarından aydın olur ki, ilk Eldəniz hökmdarları dövründə İraq və Azərbaycandan yığılan bütün gəlirlər məhz Əlincə qalasındakı xəzinədə toplanmışdır. Hətta bəzi dövrlərdə məhz Əlincə qalasındakı xəzinəyə sahiblənmək uğrunda ciddi mübarizə getmişdir. Qalanın müdafiə sistemi o dərəcədə möhkəm olmuşdu ki, hətta bir çox Eldəniz hökmdarları ən çətin vaxtlarda məhz Naxçıvana sığınmağa çalışmışlar. Mənbələrdə verilən məlumatlar da bunu təsdiq edir. Sonuncu atabəy Özbəyin dövründə dövlətin Təbrizdən idarə olunmasına baxmayaraq, dağıdıcı monqol hücumlarından canını qorumaq üçün o, ilk növbədə, Naxçıvanda məskunlaşmağa çalışmışdı. İbn əl-Əsir 12 cildlik "Əl-kamil fi-t-tarix" ("Mükəmməl tarix") əsərində bu haqda bəhs etmişdir: "Təbrizin əsl hakimi Özbək Pəhləvan oğlu oranı buraxıb getmişdi. Çünki o, fəaliyyətsiz bir əmir idi. ...Tatarların Həmədandan çıxıb gəlməkdə olduqlarını eşitdikdə özü Təbrizi buraxıb Naxçıvana getmiş və ailəsini özündən uzaqlaşdırmaq üçün Xoya göndərmişdi". Mirxondun məlumatlarından isə aydın olur ki, Özbək Naxçıvana gəldikdən sonra Əlincə qalasına çəkilmişdir. O yazır: "...Sultan Cəlaləddinin onun (Özbəyin – E.K.) hakimiyyəti altında olan Azərbaycanı tutmasından sonra Əlincə qalasında kədərdən və qəmdən öldü".

***Sürməli – "müsəlmanların sərhəd dayağı"***

Atabəylər dövründə müdafiə qabiliyyətinə görə seçilən qalalardan biri də Sürməli qalası olmuşdur. Orta əsr mənbələrinin bir çoxunda bu qaladan "müsəlmanların sərhədyanı dayağı" kimi bəhs olunur. Sədr əd-Din Əli Hüseyniyə istinadən akademik Nailə Vəlixanlı yazır ki, Səlcuq Sultanı Alp Arslan 1063-cü il yürüşü zamanı Naxçıvana gəldikdən sonra səlcuqlar "müsəlmanların sərhədyanı dayağı" olan iki qalanı (Sürməlini və Qarabağı) tutur və buranı "əsgərlərlə, sursatla, pulla və silahla təmin edib, Naxçıvan əmirinin sərəncamına verirlər".

Bu qala monqollar dövründə dağıntılara məruz qalmasına baxmayaraq, Sürməli qalası haqqında XIV əsr müəllifi Nizaməddin Şami Əmir Teymurun yürüşlərindən bəhs edən "Zəfərnamə" əsərində də məlumat vermişdir. 1386-cı il hadisələrindən bəhs edən müəllif yazır: "Əmir Teymur yazı Təbriz və ətrafında keçirdikdən sonra Naxçıvan yolundan yola düşüb Qərbi qalasına gəldi. Buranı müharibəyə girişərək zəbt etdi. Buranın başçısı olan Şeyx Həsəni tutub Əmirin yanına gətirdilər. Bundan sonra Sürməli qalasına gələrək onu müharibə ilə zəbt edib yıxdıqdan sonra bu qövmün böyüyü olan Tutan adındakı türkməni tutdular. Bundan sonra oradan köçüb Qars qala və İçqalasına gəlib bunun da ətrafını ələ keçirdilər".

Qeyd edək ki, tarixçilərin bir çoxu bu qalanın hazırda Türkiyənin İğdır vilayəti ərazisində yerləşdiyini qeyd edirlər. Bir məsələni də qeyd etmək lazımdır ki, Naxçıvan ərazisində (indiki Babək rayonu ərazisində) XX əsrin ortalarına qədər "Sürəməlik" toponimi mövcud olmuşdur. Filologiya elmləri doktoru Adil Bağırov yazır ki, XVI əsrin sonlarında bu ad "Yuxarı Sürəmərk" və "Aşağı Sürəmərk" adları ilə qeydə alınmışdır.

Lakin Ən-Nəsəvi "Sultan Cəlal əd-Din Mənqiburnun həyatının təsviri" adlı əsərində Sürməli şəhərinin Araz çayının cənub sahilində yerləşdiyini yazır. Nəzərə alsaq ki, Babək rayonunun ərazisi Araz çayından şimalda, İğdırın Sürməli kəndinin ərazisi isə Araz çayından cənubda yerləşir, o zaman orta əsr mənbələrində adıçəkilən Sürməlini İğdır ərazisindəki yaşayış məntəqəsi ilə eyniləşdirmək olar. Məlumat üçün deyək ki, İğdır mahalının Tuzluca rayonunun bir kəndi olan Sürməli İğdırın mərkəzindən 32 kilometr, Tuzluca şəhər mərkəzindən isə 11 kilometr aralıda yerləşir. Bugünkü Sürməli ərazisində iki qala mövcuddur. Onlardan biri "Sürməli qalası" adlanan gözətçi qalası, digəri isə "Qaraqala" ("Karakale") adlanan Suri-Maridir. Birinci qala Tuzlucanın mərkəzindən 14,5 kilometr məsafədə, Sürməli kəndindən 400 metr şərqdə yerləşir, şimalından Araz çayı axır. Bölgə tarixinin tədqiqatçılarından olan Ziya Zakir Acarın yazdığına görə, Qaraqala kimi böyük bir qalaya yaxın olması Sürməli qalasının sərhəd-gözətçi qalası olduğunu deməyə əsas verir.

***Tağmar – Haçadağın ətəyindəki gözətçi məntəqəsi***

Həmdullah Qəzvininin "Nüzhət əl-Qülub" əsərində adını çəkdiyi qalalardan biri də Tağmar qalasıdır. Qalanın dəqiqliklə Naxçıvan ərazisində hansı istiqamətdə yerləşməsi haqqında məlumatımız olmasa da, toponimin adına əsasən, müəyyən fikirlər irəli sürmək mümkündür.

Məlumdur ki, Naxçıvanın bu gün də simvollarından biri hesab edilən Haçadağın digər bir adı "İlanlıdağ" olmuşdur. Culfa rayonu ərazisində yerləşən və 2415 metr hündürlüyü olan bu dağ bəzi əfsanə və fərziyyələrə görə, Nuh Peyğəmbərin öz qövmünə xitabət dağı olmuş, sonradan isə bu inam o dağı "Elandağa" çevirmişdi. Digər bir ehtimal isə ərazidə zəhərli ilanların çox olması ilə əlaqələndirilir. Haçadağın zirvəsində iki haça arasında qalın gil təbəqəsi, ocaq yeri və orta əsrlərə aid saxsı qab qalıqları aşkar edən tədqiqatçılar qeyd edirlər ki, Haçadağ qədim müşahidə məntəqəsi olmuş, yaxınlaşan təhlükə haqqında burada yandırılmış ocaq vasitəsilə Əlincəqalaya, oradan isə Çalxanqala və Şapurqalaya məlumat verilmişdir. Tağmar toponimindəki "tağ" komponenti indi də dilimizdə işlənən "dağ" sözünün ilkin forması, "mar" isə səlcuqların saray dili olan farscadan tərcümədə "ilan" deməkdir. Deməli, ehtimal etmək olar ki, İlanlı dağın üzərindəki gözətçi məntəqəsindən – qaladan H.Qəzvini Tağmar kimi bəhs etmişdir. Qədim Gal-İlandağ yaşayış yerində qalıqları bu günədək gəlib çatmış İlandağ karvansarayından 40-50 metr cənubda bu gözətçi məntəqəsinin – qalanın qalıqları bu gün də qalmaqdadır. Tarix üzrə fəlsəfə doktoru Elbrus İsayevin verdiyi məlumata görə, ətrafı qaya parçaları ilə hasarlanmış, sıldırım qaya üzərində yerləşən bu gözətçi məntəqəsindən ətraf ərazilərı izləmək mümkün olmuşdur. Ordubad-Culfa-Naxçıvan-Sədərək karvan yoluna xidmət edən yardımçı qollardan biri – Gal-Şurud-Paradaş-Dərgəməlik-Nürgüt-Sisyan (Sünik) istiqamətində uzanan yolun Culfa şəhərindən Paradaş kəndinə qədər olan hissəsi bu məntəqə vasitəsilə aydın müşahidə olunurdu.

Qeyd edək ki, "Naxçıvan Abidələri Ensiklopediyası"nda da Culfa rayonunun Gal kəndindən şimal-şərqdə, Haçadağın yamacında sıldırım qayalarla əhatə olunmuş orta əsrlərə aid yaşayış yerindən bəhs olunur. Yerli əhali arasında "Nəbi qalası" adlandırılan bu qalada arxeoloji tədqiqatlar zamanı tapılan maddi-mədəniyyət nümunələrinə əsasən, onun XI-XVIII əsrlərə aid olması qeyd edilir.

***Faqnan – yeri naməlum olan qala***

Həmdullah Qəzvininin adını çəkdiyi dördüncü qala Faqnan haqqında apardığımız araşdırmalar isə, hələ ki, bu qalanın harada yerləşdiyi, hansı məqsədlərlə istifadə olunduğu barədə hər hansı fikir irəli sürməyimizə imkan vermir.

***Beləliklə, "Nüzhət əl-Qülub"da adıçəkilən bu qalalar Atabəylərin (Eldənizlərin) hakimiyyəti illərində dövlətin əsas idarəçilik mərkəzi olan Naxçıvanın qorunmasında xüsusi əhəmiyyət daşımışlar. Bu qalaların tarixi-coğrafi baxımdan öyrənilməsi həm də Azərbaycanın və Naxçıvanın orta əsrlər dövründə hansı əraziləri əhatə etdiyini aydınlaşdırmağımız üçün bizə bir çox faktlar verir.***

Elnur KƏLBİZADƏ

**Təhsilə qayğının ölkənin intellektual gələcəyinə xidmət etdiyini vurğulayan, öz fəaliyyətində bunu reallaşdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: *"Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik"*. Bu gün ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da təhsilin inkişafı diqqət mərkəzində saxlanılır. Hər il yeni məktəb binaları tikilir, təhsil ocaqlarında müasir tədris avadanlıqları quraşdırılır, məktəblilərin istifadəsinə kompüter dəstləri və elektron lövhələr verilir, şagirdlər pulsuz dərslik və ədəbiyyatlarla təmin olunurlar. Köklü maarifçilik ənənələrinə malik olan Ordubad rayonunda da təhsildə böyük uğurlar əldə edilib. Öncə onu qeyd edək ki, qədim Ordubad torpağının tarixin bütün dönəmlərində özünün ziyalıları, görkəmli elm xadimləri ilə qürur duymağa, öyünməyə mənəvi haqqı olub. Maarifçilik ənənələrini bu gün də yaşadan rayonun təhsil sistemi respublikamızda bu sahəyə son illərdə göstərilən dövlət qayğısından ruhlanaraq özünün yeni mərhələsinə qədəm qoyub. Rayon Təhsil Şöbəsinin müdiri İlqar Həsənovla söhbətimiz də bu barədədir:**

# Təhsilə qayğı prioritet vəzifəyə çevrilib

## *Qazanılan uğurların təməlində bu amil dayanır*

***– Azərbaycan tarixinin ötən əsrin 60-cı illərinin sonundan bu günə qədərki dövrünə nəzər salarkən həyatımızın bütün sahələri ilə yanaşı, təhsilimizin də böyük inkişaf yolu keçdiyini görürük. Bu illərdə təhsil müəssisələrinin şəbəkəsi xeyli genişləndirilib, onların maddi-texniki bazası gücləndirilib.***

– Bu böyük dəyişiklikləri doğma Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızın timsalında daha aydın görmək olar. Bunu ilk olaraq məktəblərin müasir tələblərə cavab verməsi ilə bağlı həyata keçirilən tədbirlərdən müşahidə etmək mümkündür. Belə ki, son 18 ildə muxtar respublikada 200-dən artıq orta məktəb binasının tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilməsi muxtar respublikada təhsilin prioritet vəzifəyə çevrilməsinin nümunəsidir. Naxçıvanda təhsil müəssisələrinin yeni informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması həm də ona görə böyük əhəmiyyət daşıyır ki, artıq bu texnologiyalar dünya təhsil və informasiya məkanına inteqrasiyaya geniş imkanlar açıb. Faktlara nəzər salaq. Son illər ümumtəhsil məktəblərinə 3409 kompüter dəsti verilib. Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə orta məktəblərdə 548 elektron lövhə quraşdırılıb. Bu da hər 13 şagirdin 1 kompüterdən istifadəsinə imkan verib. Bütün bunlar isə, təbii ki, keçilən dərslərin yüksək səviyyədə mənimsənilməsinə imkan verib və bu, mahiyyət etibarı ilə, özünü ali məktəblərə qəbulda da göstərib.

Ümummilli liderimizin uzaqgörən ideyalarına muxtar respublikada sevgi və ehtiramın ifadəsini, ulu öndərin təhsil konsepsiyasının uğurla həyata keçirilməsini bu gün Naxçıvanda hamı görür və yüksək dəyərləndirir. Bütün bunlar ulu öndər Heydər Əliyevin təhsil siyasətinin konkret bir regionda təcəssümüdür.

***– Konkret olaraq, Ordubad rayonunda təhsilin bugünkü səviyyəsini necə dəyərləndirərdiniz?***

– Öncə onu deyim ki, muxtar respublikada geniş vüsət alan quruculuq işləri həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Bu tədbirlərdən təhsil sahəsinə daha çox pay düşüb. Məktəblər üçün yeni binalar inşa olunub, onların maddi-texniki bazaları gücləndirilib, təhsil müəssisələrində müasir tədris şəraiti yaradılıb. Ordubad rayonunda da həyata keçirilən genişhəcmli tikinti-quruculuq tədbirlərinin böyük qolunu yeni məktəb binalarının inşası təşkil edib. Faktlara müraciət etmək istəyirəm. Son 18 ildə rayonda 23 yeni məktəb binası tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Təqdirolunan cəhətlərdən biri isə ondan ibarətdir ki, həyata vəsiqə alan yeni məktəb binalarının böyük əksəriyyəti rayonun ucqar dağ və sərhəd yaşayış məntəqələrinin – Pəzməri, Çənnəb, Kələki, Tivi, Nəsirvaz kimi kəndlərin payına düşüb. Elə ötən ildə istifadəyə verilən 6 yeni məktəb binasının beşi ucqar dağ kəndlərindədir. Belə ki, Bist, Əlahi, Xurs, Nürgüt və Nəsirvaz kənd məktəbləri yeni binalarda fəaliyyətlərini davam etdirirlər. Məktəblilərin informasiya texnologiyalarından istifadəsini təmin etmək məqsədilə hər il təhsil ocaqlarına kompüter dəstləri və elektron lövhələr verilir. Bu gün rayonun məktəblərində müəllim və şagirdlər 332 kompüterdən, 72 elektron lövhədən istifadə edirlər.

***– Təhsil müəssisələrində tədrisin səviyyəsini yüksəltmək, intellektual, dövlətçiliyimizə sadiq vətənpərvər vətəndaşlar yetişdirmək üçün həyata keçirilən tədbirlər barədə nə deyə bilərsiniz?***

– Qeyd edim ki, rayonda 33 orta, 3 ümumi, 1 ibtidai məktəb, idman və şahmat məktəbləri, gənc texniklər stansiyası, uşaq yaradıcılıq evi, ekoloji tərbiyə mərkəzi fəaliyyət göstərir. Təhsilə cəlb olunmuş 5198 şagirdin təlim-tərbiyəsi ilə 820 müəllim məşğul olur. Məktəblərimizin pedaqoji kollektivləri icbari təhsil qanununun yerinə yetirilməsinə ciddi fikir verir, diqqəti çox mühüm bir məsələyə yönəltməyə çalışırlar: təkcə savadlı məzunlar yox, həm də dövlətçiliyimizə, dövlətimizə, müstəqilliyimizə qəlbən bağlı olan vətənpərvər vətəndaşlar yetişdirmək. Bunun üçün də tədris prosesində müasir təlim üsullarından istifadəyə, sinifdənxaric və məktəbdənkənar tədbirlərə geniş yer verilir. Belə tədbirlərə rayon ziyalıları, ağsaqqallar dəvət olunurlar. Şagirdlərimizin bilik yarışlarında, test-sınaq imtahanlarında, fənn olimpiadalarında iştirakları təmin edilir.

Ötən tədris ilində şagirdlərimizdən 5 nəfəri ölkə səviyyəli bilik yarışlarında iştirak edərək rayona uğurlu nəticələrlə qayıdıblar. İdman sahəsində də yüksək göstəricilərə nail olunub. Müxtəlif müsabiqələrə qatılan Ordubad məktəbliləri bu müsabiqələrdə də öncül yerləri tutublar.

***– Orta məktəblərdə təhsilin səviyyəsi test imtahanlarının nəticələri ilə, ali məktəblərə qəbulla ölçülür. Bu sahədə Ordubad rayonunun qazandığı uğurlar həmişə çox olub. Bəs ötən dərs ilində necə?***

– Onu qeyd edim ki, ötən il rayonun məktəblərini 440 məzun bitirib. Onların 327-si ali məktəblərə qəbul olmaq üçün sənəd verib. Tələbə adının sevincini 161 nəfər yaşayıb. Abituriyentlərin 25 nəfəri 500-dən, onlardan 9 nəfəri isə 600-dən yuxarı bal toplayıb. Ali məktəblərə tələbə qəbulunda ən böyük uğur isə Ordubad şəhər 1, 3 nömrəli və internat, Unus, Çənnəb, Kotam, Dizə, Biləv, Bist, Kələki, Vələver, Vənənd kənd məktəblərinə məxsusdur. Ötən il qazandığımız uğurlar qənaətləndirici olsa da, dövlət səviyyəsində təhsilimizə göstərilən qayğı müqabilində bunu son hədd hesab etmirik. 2013-2014-cü tədris ilini yeni uğurlarla başa vurmaq üçün səylə çalışırıq. Buna əminliyimiz ondadır ki, muxtar respublikada təhsilə qayğı prioritet vəzifəyə çevrilib və qazanılan uğurların təməlində məhz bu amil dayanıb.

**– Müsahibə üçün sağ olun.**

Muxtar MƏMMƏDOV



Əli XUDİYEV

*Süfrə mədəniyyəti xalqımızın əsrlər boyu formalaşan milli mədəniyyətinin tərkib hissəsidir. Mədəniyyətimizin bu növü fəsillər üzrə yeməklərin hazırlanması adətlərini də özündə ehtiva edir. Bu cəhətdən qış süfrəsi öz qeyri-adiliyi ilə səciyyələnir. Məhz bu səciyyəvi xüsusiyyətləri oxucularımızla bölüşmək üçün AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, Hacı Qadir Qədirzadə ilə həmsöhbət olduq:*

# Naxçıvanda qış süfrəsi

***– Qadir müəllim, ilk olaraq, qış süfrəsinin özünəməxsus cəhətləri barədə…***

– Xalqımız yaşam tərzini uzun illərin təcrübəsinə, təbii-coğrafi şəraitə uyğun olaraq qurmuşdur. Yaşlı nəsillər bu məsələdə üç əsas amilə – qış ərzaq ehtiyatına, geyim və yanacaq amillərinə xüsusi önəm vermişlər. Təbii ki, bu sırada ərzaq ehtiyatı ən önəmli yer tutmuşdur. Qış ərzaq ehtiyatı daha çox "dadlıq" adlanmaqla bir neçə yerə bölünmüşdür. Bunlar içərisində başlıca yeri un və heyvanat məhsulları tutur.

***– Etnoqrafik araşdırmalara görə, xalqımızın qışa hazırlığı necə olmuşdur?***

– Ümumiyyətlə, qış hazırlığına yazdan, el arasında "pencər" adlanan bitkilərin toplanıb qurudulmasından başlanırdı. Həmin bitkilərin bəziləri bir sıra xörəklərə dadlandırıcı kimi əlavə edilir, bəziləri qovurma ilə birlikdə və ya yumurta əlavə edilməklə qızardılırdı (qovrulurdu). Eyni zamanda onlardan sulu (duru) yeməklərin hazırlanmasında da istifadə edilirdi. Qışın ərzaq ehtiyatı içərisində önəmli yer tutan heyvanat məhsulları – yağ, pendir, qurut, qovurma yaydan başlayaraq soyuqlar düşənə qədər tədarük edilir. Bu zaman ailə üzvlərinin sayı, müxtəlif bayram və mərasimlər, qonaqlar və sair nəzərə alınırdı. Qış ərzaq ehtiyatı içərisində müxtəlif çərəzlər, meyvə quruları (xalq arasında qax), dolma üçün hazırlanmış yarpaqlar, bostan bitkiləri, qurudulmuş pencərlər və sair xüsusi yer tuturdu. Quru meyvələrlə yanaşı, alma, armud (el arasında qışaqalan), heyva, üzüm də (daha çox hənəqırna) qış ehtiyatının əsas azuqələrindən hesab olunurdu.

Bu cəhətdən Ordubad bölgəsini xüsusi qeyd etmək lazımdır. Burada qış ərzaq ehtiyatı içərisində lobya qurusu (xalq arasında maş) önəmli yer tutmuş, bu gün də tutmaqdadır. Lobyanı iki formada qurudurdular: göy (yaşıl) vaxtı doğranaraq qurudulan və dənələri qurudulan.

***– Çətin fəsil hesab edilən qışda daha çox hansı yeməklərə üstünlük verilir?***

– Xalq arasında qış yeməkləri daha çox "istilik" adı ilə bilinmişdir: yəni orqanizmə istilik verən, enerjini qoruyan. Bunlar içərisində xəmir xörəkləri üstünlük təşkil edirdi – yarma aşı, xəşil, müxtəlif horralar, sıyıq əriştə, qızıl əriştə, xəmiraşı və sair. Daha çox sıyıq əriştəyə üstünlük verilərdi. Qovurma ilə bişirilən bu yeməyə quru (dənə) lobya, noxud, ərik, alça qurusu, ələyəz, müxtəlif ədviyyalar əlavə edilir.

Qışın əsas yeməklərindən biri unla hazırlanan xəmir xörəkləridir. Bunlar içərisində xəşil xüsusi yer tutur. Xəşil hazırlamaq üçün ailə üzvlərinin sayına uyğun olaraq götürülmüş un ılıq su ilə çalınaraq (açılaraq) horra halına salınır. Ona duz, sarıkök, sarıçiçək əlavə edilərək hazır olanadək qarışdırılır. Qarışdırarkən bir az ılıq su əlavə edilir. Bu, "dəstov suyu" adlanır. Xəşil bərkidikdə ikinci dəfə su əlavə olunub qarışdırılır. El arasındakı "o qədər qaynayıb ki, xəşil olub" ifadəsi buradan qaynaqlanır.

Tam bişdikdən, yəni un iyi çəkildikdən sonra xəşil hər kəs üçün ayrıca olaraq boşqablara çəkilərək süfrəyə verilir. Xəşilin ortası açılır, ora dağ edilmiş inək yağı, zövqə uyğun olaraq doşab, bal əlavə edilir. İstilik hesab edilən xəşil haqqında xalq arasında belə bir inanc var ki, kim ilk qar yağanda xəşil yesə, bütün qış boyu üşüməz. Bəzi bölgələrimizdə xəşil yarmadan da hazırlanır.

*Hörmətli oxucular, etnoqraf-alim Hacı Qadir Qədirzadə qışda bişirilən bəzi yeməklərin hazırlanması haqqında məlumat verdi; olduğu kimi sizə təqdim edirik.*

***Maş şorvası.*** Daha çox Ordubad bölgəsində bişirilir. Maşı (lobyanı) ailə üzvlərinin sayına görə yuyub qazana töküb su, istiot, duz əlavə edib vam odda qaynadırlar. Maş bişdikdən sonra ona kartof əlavə edirlər. Kartof bişənə yaxın soğanı yağda qızardıb müxtəlif ədvalar əlavə etdikdən sonra bişirilən xörəyə qarışdırırlar. Xörəyi lüğab halına salana (nisbətən bərkiyənə) qədər qaynadırlar. Buna qovurma da əlavə etmək olar ki, bu da xörəyin dadını daha da artırır.

***Maşla zing şorvası.*** Qaramalın ayaqlarının aşıqlıqdan, dizdən yuxarı olan hissəsi zing adlanır. Zing bişirildikdə çox dadlı olmaqla qüvvətli yemək hesab edilir. Zəiflik, sınıqlar zamanı ən çox məsləhət bilinən yeməkdir. Zing bir az qaynayıb lüğab saldıqdan sonra ona maş əlavə edilir. Xörək maş bişənə qədər vam odda qaynadılır. Sonra ona yağda qızardılmış soğan əlavə edilib istiot, digər ədvalar vurulur və bir az qaynadıqdan sonra süfrəyə verilir.

***Qurud aşı (bu xörək "kələgöş", "cələcoş" adları ilə də bilinməkdədir).*** Qışın əsas yeməklərindən biri olub, xüsusi qaydada hazırlanır. Qurud ılıq suda açılaraq ayran halına salınır. Sonra onu çürüməməsi üçün vam odda qaynara düşənə qədər qaşıq və ya çömçə ilə bulayırlar. Qaynamağa başladıqdan sonra yağda qızardılmış soğan əlavə edirlər. Ordubadın bir sıra kəndlərində qurud aşına həvəngdəstədə döyülmüş cəviz ləpəsi və maralotu da tökürlər. Qurud aşının qovurma ilə bişirilmişi daha dadlı olur.

***Hədik.*** Daha çox mərasim yeməyi kimi tanınır. Bir qayda olaraq, uşaqlar ilk diş çıxardıqda hədik bişirilib paylanır. Bununla yanaşı, istilik hesab edilməklə ilin soyuq aylarında, daha çox qışda bişirilir. Əsasən, buğdadan hazırlanır. Təmizlənmiş buğda zəif odda lüğab salana qədər qaynadılır. Xörək asılqan hala düşəndə bişmiş hesab edilir.

***Əriştə aşı (sıyıq, suyuq əriştə).*** İstilik hesab edilən əriştə aşı bişirilmə qaydasına görə üç yerə bölünür: qovurmalı əriştə, küftə ilə bişirilən əriştə, ətsiz əriştə.

***Qovurmalı əriştə.*** Soğan qovurma ilə qızardılır, lavaşa vurulur, sonra müəyyən miqdarda qaynar su tökülüb lobya (noxud), istiot, duz, alça atılır və vam odun üstündə qaynadılır. Bişənə yaxın əvvəlcədən kəsilib hazırlanmış əriştə əlavə edilir. Əriştə tökülərkən kütürləşməsin deyə, yüngülcə qarışdırılır və xörək lüğab halına düşənə qədər zəif odda bişirilir.

***Küftəli əriştə aşı.*** Soğan yağda qızardılır, lazımi qədər qaynar su tökülüb, el dili ilə desək, dən-düşü – istiotu, duzu əlavə edildikdən sonra noxudu (lobyası) bişənə yaxın əvvəlcədən hazırlanmış cəviz boyda küftələr xörəyə salınıb bir burum qaynadılır, sonra isə əriştəsi vurulub lüğab salana qədər bişirilir. Ətsiz əriştə də bu qayda ilə bişirilir. Ona qovurma və ət vurulmadığından belə adlanır.

Geniş yayılmasa da, əriştə aşının zinglə bişirilməsi çox dadlı olur. Bunun üçün zing lüğablanana qədər qaynadılır, yağda qızardılmış soğan, sonra lobya (noxud), baş soğan, ərik, alça, istiot, duz, bişənə yaxın əriştə əlavə edilir.

Milli mətbəximizin nümunələrindən olan bu yeməklərdən istifadə süfrə mədəniyyətimizin yaşadılması ilə yanaşı, həm də sağlamlığımızın qorunması deməkdir.

**Hazırladı: Türkan HÜSEYNLİ**

# "Araz-Naxçıvan"ın rəqibləri bəlli oldu

İkinci dövrənin hazırlıqlarını davam etdirən "Araz-Naxçıvan" futbol komandasının sparinq rəqibləri artıq bəllidir. Bakıda gündə bir dəfə məşq etməklə çempionatın ikinci dövrəsinə hazırlaşan muxtar respublika təmsilçisi burda üç yoxlama görüşü keçirəcək. Rəqiblərin Premyer-Liqada mübarizə aparan komandalardan olmasını baş məşqçi Əsgər Abdullayev xüsusilə istəyib. Belə ki, komandamızın ilk rəqibi Bakının "Rəvan" klubu olacaq. Baş məşqçisini istefaya göndərən "sığortaçılar" "sükan arxasına" yeni gətirilən türk mütəxəssis Güvənc Kurtarla ilk matçını məhz "Araz-Naxçıvan"a qarşı keçirəcəklər. Oyun yanvarın 12-si, saat $13^{00}$-də "Bayıl Arena"da oynanılacaq.



Qırmızı-ağların ikinci rəqibi yenə Premyer-Liqa təmsilçisi "Sumqayıt" futbol komandası olacaq. Gənclik şəhərini təmsil edən komanda ilə oyunumuz isə yanvarın 15-nə təsadüf edəcək. Sumqayıt şəhərində yeni istifadəyə verilmiş arenada baş tutacaq oyunun başlama saatı $14^{00}$-dür.

İki rəqibdən fərqli olaraq, sonuncu matç bir qədər çətin rəqibə qarşı olacaq. Belə ki, Premyer-Liqanın güclü rəqiblərindən olan "AZAL"la oyun yanvarın 22-də keçiriləcək. Oyunun başlama saatı dəqiqləşməsə də, bu matçın Şüvəlanda yerləşən "AZAL Arena"da oynanılacağı dəqiqdir. Onu da qeyd edək ki, komandamızın baş məşqçisi Əsgər Abdullayev bir vaxtlar məhz "AZAL"-ın baş məşqçisi olub.

Bu oyunlarda əsas məqsəd futbolçuların fiziki durumunu yoxlamaq və yeni gələnlərin oyun qabiliyyətinə yaxından bələd olmaqdır. Odur ki, bu görüşlərdə baş məşqçi əsas olaraq yeni taktikaların meydanda aşılanmasına çalışacaq.

**Ceyhun MƏMMƏDOV**


## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi

*2014-cü il üçün tələb olunan ərzaq məhsullarının satın alınması üzrə açıq tender elan edir*

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən ərzaq məhsulları üzrə açıq tender üsulu ilə satınalma həyata keçirilir.

Tenderdə iştirak etmək istəyənlər 25 yanvar 2014-cü il tarixdə saat $13^{00}$-dək Azərbaycan dilində tərtib olunmuş tenderin "Əsas şərtlər" toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsində yerləşən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyindən ala bilərlər.

Tender iştirakçıları müqaviləni yerinə yetirmək üçün lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*– tenderdə iştirak etmək üçün ərizə (ərizədə müəssisənin (fiziki şəxsin) adı, yerləşdiyi ünvan, poçt indeksi, telefon nömrəsi, rəhbərinin adı, soyadı göstərilməklə möhürlənmiş və imzalanmış olmalıdır)*

*– tender təklifi (tender proseduru keçirildiyi tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır)*

*– iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*

*– iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.*

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə 1 fevral 2014-cü il tarixdə saat $13^{00}$-dək təqdim etməlidirlər. Təklif zərfləri 1 fevral 2014-cü il tarixdə saat $14^{00}$-də qeyd olunan ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender haqqında əlavə məlumatları aşağıdakı ünvandan almaq olar:

***Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi***
***Əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu***
***Telefon: 544-48-34***


## *Allah rəhmət eləsin*

Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının baş həkimi Xuraman Hacızadə və poliklinikanın kollektivi sabiq iş yoldaşları həkim
**ŞƏMSİYYƏ MƏMMƏDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Səxavət və Vilayət Hacıyevlərə, dayıları
**RƏŞİD ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yüksəkgərginlikli Elektrik Şəbəkəsinin direktoru Yunis Əliyev və şəbəkənin kollektivi Mübariz və Hafiz Tağıyevlərə, dayıları
**RƏŞİD ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Reanimasiya şöbəsinin müdiri Ənvər Şıxəliyev və şöbənin kollektivi Abasət Hüseynəliyevə, atası
**HƏSƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru Aypara Behbudova və kitabxananın kollektivi Natiqə Xəlilovaya və Cavanşir Zeynalova, əzizləri
**İBRAHİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan şəhər 10 nömrəli uşaq bağçasının müdiri Elnarə Seyidova və bağçanın işçilərindən Aybəniz Həsənova, Nuridə Əsgərova, Zümrüd Məmmədova, Natəvan Həsənova və Xuraman Məmmədova iş yoldaşları Qönçə Hüseynovaya, qardaşı
**MEHMANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Cərrahiyyə şöbəsinin müdiri İsa Abdullayev və şöbənin kollektivi Abasət Hüseynəliyevə, atası
**HƏSƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı
Baş redaktor müavini: SƏYYAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 21